Ədəbiyyat QƏZETİ
№38-39 24 oktyabr 2025-ci il 17



# Əlisəmid KÜR

Amansız ölüm qələm yoldaşımız Əlisəmid Kürü apardı.

Əlisəmid Kür (Əlisəmid Cəfər oğlu Mehdiyev) 8 fevral 1954-cü ildə Salyan şəhərində müəllim ailəsində doğulub. 1971-ci ildə Salyan şəhər 3 saylı orta məktəbini fərqlənmə attestatı ilə bitirib. 1981-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin teatrşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirib. Azərbaycan Dövlət Teleradio Verilişləri Komitəsində redaktor, "Azərbaycanfilm" Kinostudiyasında və Azərbaycan Teatr Muzeyində müxtəlif vəzifələrdə çalışıb. 1988-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

1989-cu ildə AYB-nin Ədəbiyyatı Təbliğ və Müəllif Hüquqları bürosunda şöbə müdiri, Azərbaycan Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin "Yol" ədəbiyyat qəzetində şöbə müdiri, 1991-1994-cü illərdə "Yol" ədəbiyyat qəzetinin baş redaktoru, Tərcümə Mərkəzinin "Xəzər" dərgisinin məsul katibi vəzifələrində işləyib.

Ədəbi fəaliyyətə ötən əsrin 80-ci illərində başlayıb. İlk qələm təcrübələri mətbuatda işıq üzü görüb. "Rəngli kölgələr", "Əlisəmid və qırx tanış üz" kimi kitabları maraqla qarşılanıb. Beynəlxalq Rəsul Rza mükafatına, bir çox ədəbi mükafatlara layiq görülüb.

İstedadlı qələm yoldaşımız, səmimi insan Əlisəmid Kürün işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**